**Taleyin gərdişi belədir, bir gün gələn gedir, amma yaddaşlarda qalan qəhrəmanlar olur. Bizim şəhidlərin hər biri bir yenilməz qəhrəmandır, ölüm onları yenmədi, onlar ölümü yenib əbədiyaşarlıq qazandılar. Bəlkə də heç biri qəhrəman olmağı arzulamayıb, amma hər biri torpaq uğrunda can verməyi, şəhid olmağı arzulayıb. Hansı ana ilə danışırsan, deyir ki, oğlumun ən böyük arzusu torpaqlarımızı işğaldan azad edib şəhid olmaq olub. Şəhidlər bir-birinə bənzədiyi kimi, analar da bir-birinə oxşayır, çünki onları bir-birinə taleləri bənzədir.**

# 20 yaşı tamam olan gün Murovda qəhrəmancasına şəhid oldu - Rzayev Əlirza Mehman oğlu...

***Gülnarə Rzayeva:** "Balam son nəfəsində "ana" deyərək gözlərini əbədi yumub"*






2000-ci ilin 29 sentyabrında Salyan şəhərində anadan olan şəhid Əlirza Mehman oğlu Rzayev də öz şəhid qardaşlarına bənzəyir. Əlirzanın anası Gülnarə xanımla Biləsuvarda yaradıcılıq ezamiyyətində olarkən görüşüb söhbətləşdik. O, da Nəzakət Məmmədovanın rəhbərlik etdiyi Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı Redaksiyasının ərsəyə gətirdiyi "44 Gün-Tarixi zəfər" IV cildliyinin III və IV cildlərinin Biləsuvar rayonunda keçirilən təqdimat mərasiminə qatılmışdı.

Gülnarə xanım bildirdi ki, mərhum həyat yoldaşı Mehman Rzayev 1-ci Qarabağ müharibəsi, oğlu Fərid isə Aprel döyüşləri iştirakçısı olub.

Mühəndis işləyən Gülnarə xanım qeyd etdi ki, 2 övladı olub.

Ananın dediyinə görə, Əlirza Rzayev 10-cu sinfə qədər şəhid Azər Səfərov adına Salyan internat məktəbində təhsil alıb. 10 və 11 sinifləri Salyan şəhər 4 saylı məktəbdə oxuyaraq 2017-ci ildə orta təhsilini başa vurub. O, 2018-ci ildə Qərb Universitetinin nəzdində olan Qərbi Kaspi Kollecinə daxil olub, vergi və vergitutma ixtisası üzrə əyani təhsil almağa başlayıb. Amma 2019-cu ildə təhsilini dondurараq hərbi xidmətə gedib. "Oğlum hərbi qulluğunu düşmənlə təmas nöqtəsində, Murovda edib. Vətən müharibəsi başlayan andan Əlirza da topçu kimi döyüş mövqeyində olub, Murov dağı yüksəkliyinin Kəlbəcər istiqamətində ağır döyüşlərdə topçu kimi iştirak edib. Sərrast atəşlə düşmən mövqelərinə sarsıdıcı zərbələr vurub. Lakin 29 sentyabr tarixində, 20 yaşı tamam olan gün düşmənin atdığı mərmi nəticəsində aldığı qəlpə xəsarətlərindən şəhid olub. Şiddətli döyüş getdiyi üçün ağır yaralanmış Əlirzanı 4 saata yaxın ərazidən çıxarmaq mümkün olmadığından, o, çoxlu qan itirib. Sanitar hissəyə çatdırılanda isə artıq gec olub. Oğlum son nəfəsində "ana" deyərək gözlərini əbədi yumub..."

Ana deyir ki, oğlu şəhid olanda tərxis olunmağa üç gün qalıbmış. "Əsgər idi, hərbi xidmətini bitirməyinə üç gün qalmışdı, şəhid oldu. Subay idi. Ağıllı, tərbiyəli oğul olub. Bütün şəhid balalarımız necə olubsa Əlirza da elə olub. Əlirzanın arzuları çox idi. Çox vətənpərvər uşaq idi. Məktəb vaxtından bu onda hiss olunurdu".

Döyüşlər zamanı Murovdakı gərgin vəziyyəti görüb heç məzuniyyətə də gəlməmişdi. Ana deyir, Əlirza şəhid olmazdan 15 gün əvvəl qardaşına zəng vurub ondan hərbi xidmətdən qayıtdıqdan sonra geyinmək üçün pal-paltar almağını istəyib. "Qardaşı da onun bu arzusunu həvəslə yerinə yetirdi. Əlirza 1-ci sinifdə oxuyarkən qardaşı ilə birlikdə şəkli var. O şəhid olandan sonra fikir vermişik ki, həmin şəkildə bir əlində bayraq, o biri əlində oyuncaq avtomat tutub. Oğlanlarımın ad günləri ard-arda idi. Sentyabr ayının 28-i Fəridin, 29-u isə Əlirzanın ad günüdür. Senbtyabrın 28-də qardaşına zəng vuraraq ad gününü təbrik etdi. Özündən və məndən muğayat olmasını istədi. Telefonda əsgərlərin səs-küyü, top atəşləri eşidilsə də narahat olma dedi. Hələ internatda oxuyan zaman uşaqlara deyibmiş ki, mən də şəhid olacam. Bircə təsəllim odur ki, oğlum bu arzusuna çatdı...

Əlirza kimi mərd və ağıllı övladı itirmək mənim üçün çox çətindir. Özüm işlədiyim üçün məcbur olub onu internat məktəbinə qoymuşdum.

Bir gün evə gəlib mənə dedi ki, müəllim 20 Yanvar və Xocalı qətliamı ilə əlaqədar uşaqlara istədikləri şəkli çəkməyi tapşırıb. Mən qərara gəlmişəm ki, Şəhid anası şəkli çəkim... demə, balam mənim şəklimi çəkirmiş... Əlirza hələ uşaqlıqdan harda əsgər paltarı gördü geyinib şəkil çəkdirməyi xoşlayardı. Ordudan tərxis olunma fərmanına cəmisi 2 gün qalmışdı. 19 yaşı tamam olan gün onun əsgər olduğu hərbi hissəyə getmişdim. Elə 20 yaşı üçün də artıq hədiyyəmi almışdım, qismət olmadı... Qardaşının ad günündə ona zəng vuranda mən də telefonu alıb danışdım. Ertəsi gün Əlirzanın 20 yaşı tamam olduğundan onu təbrik etdim. Nədənsə, təbrikimə heç bir cavab vermədi. Bircə onu dedi ki, "məndən nigaran qalma, özündən muğayat ol". Telefonda atəş səsləri eşidilirdi... Müharibə dayandıqdan sonra hərbi hissədən komandirləri, döyüş yoldaşları gəlmişdilər. Əlirzanı itirdikləri üçün elə ağlayırdılar ki... Mənə oğlumun qəhrəmanlıqları barədə xeyli danışdılar, birlikdə Əlirzanın məzarını ziyarət etdik. Döyüş yoldaşları mənə tez-tez təsəlli üçün zəng vururlar. Onlara hələ müharibədən əvvəl deyibmiş ki, şəhid olacaq. Şəhid olan övladların hamısını öz balam hesab edirəm... Şükür, onların qanı yerdə qalmadı, işğal olunmuş torpaqlarımız azad edildi. Mənim təsəllim bircə budur..."

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Əlirza Rzayev ölümündən sonra "Vətən uğrunda" , "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Gülnarə ana deyir ki, şəhid unudulanda ölür, amma Əlirzanın və başqa şəhid balalarımız unudulmayacaq.

Ananın göz yaşı qurumadı heç, Əlirza, hər gün, hər an səni gözləyir. Deyir ki, balam gəlib qapıdan içəri girsə dünyalar mənim olar.

*Anan deyir balam gəlsin,*
*Gəlsin, ev-eşiyim gülsün*
*Dost sevinsin, düşmən ölsün*
*Şəhid balam, de hardasan?*

Anaları yol gözləyər şəhid oğulların, oğullarsa zirvələrdən baxar analarına, şəhidlik zirvəsindən. Əlirza da o zirvədən görür anasını...

***İradə SARIYEVA***
***Biləsuvar-Bakı***